# GÜNƏŞ QÜRUB ETDİ

**Tanınmış ziyalı, tarix üzrə fəlsəfə doktoru Zəminə Əsgərova "Şəfalı ömrün işığı" (2019) kitabını qələmə almaqla həyatda müqəddəs bır addım atmalı oldu. Çünki bu dəyərli kitab müqəddəs bir ziyalının, insanların sağlamlığı keşiyində duran, Gədəbəy bölgəsində böyük hörmət və nüfuz qazanan, Slavyanka kənd sahə xəstəxanasının baş həkimi işləyən Səyyar Əsgərovun əziz və unudulmaz xatirəsinə həsr olunub. Fədakar həkim kimi, yurdcanlı bir insan kimi, əsl vətəndaş və işıqlı ziyalı kimi ürəklərə köçüb yaşayan o böyük şəxsiyyət bir gün də, bir an da unudulmayıb, həmişə böyük məhəbbətlə yad edilir.**

Bəli, Səyyar həkimi ürəkdən sevirdilər, haqqında məhəbbətlə söhbət açırdılar. O fədakar həkimin vaxtsız itkisi ilə barışmaq olmur, axı, o, bir evdən, bir eldən yox, Azərbaycandan gedib.

Zəminə xanım o böyük və unudulmaz insanı gələcək nəsillərə tanıtmaq üçün bu müqəddəs addımı atmalı olub. Çünki Səyyar həkimi bu günkü nəsillər yaxşı tanıyırlar; o gözəl ziyalını, o bacarıqlı, istedadlı həkimi tanımayanlara tanıtmaq üçün Zəminə xanımın yazmış olduğu "Şəfalı ömrün işığı" kitabının müstəsna "rolu" olacağına ürəkdən inanırıq.

### *Səyyar həkimin 63 illik ömür kitabını vərəqlədikcə,*

***yarpaq-yarpaq çevirdikcə kövrəldiyimi, gözlərimin nəmləndiyini hiss edirdim. Hiss edirdim ki, qəhər məni boğur. Axı, Səyyar həkimi yaxşı tanıyırdım. Onun bir ziyalı kimi işığına mən də üz tutmuşdum. Bütün gədəbəylilər kimi mən də onunla fəxr edirdim. Fəxr edirdim ki, Azərbaycanın onun kimi şöhrətli, şanlı oğulları, ziyalıları, peşəkar həkimləri var.***

Səyyar həkimin həyat və fəaliyyətinə həsr olunmuş bu kitabda Gədəbəy rayonunun müxtəlif kənd sakinlərinin, dostlarının, qohumlarının, övladlarının, eləcə də vaxtilə rəhbərlik etdiyi Slavyanka kənd sahə xəstəxanasının həkim-işçi kollektivinin xatirələri toplanıb. Ən təsirli, ürəkyandırıcı sözlər isə müəllifin özünə - Zəminə xanıma məxsusdur. Niyə? Cavab çox sadədir. Çünki Zəminə xanım Səyyar həkimin bacısıdır. Bəli, bacı öz qardaşı haqqında yana-yana yazıb, yaza-yaza yanıb. Gəlin bu sətirlərə diqqət yetirək: " Hər dəfə əlimə qələm alıb Səyyar həkim haqqında nə isə yazmaq istəyəndə qəhər məni boğur, əlimdə qələm titrəyir, içimdən bir fəryad qopur. Bu fəryadlar acı göz yaşlarına çevrilir. Ürəyimdən keçənlər acı göz yaşları ilə birlikdə sözlər əvəzinə vərəqlərin üzərinə səpələnir".

Zəminə xanım ağlamasın, neyləsin? Axı, Vətən kimi sevdiyi qardaşını itirib. Axı, Səyyar həkim adi qardaş deyildi. Dağ kimi arxa idi, dayaq idi.

Səyyar həkimin vaxtsız ölümünə qohumlar, qonşular, Slavyanka kənd sakinləri ağlamasın, neyləsin! Axı, peşəkar, fədakar həkimi itiriblər... O, bir həkim kimi yüzlərlə xəstəyə şəfa vermişdi, neçə-neçə xəstəni ölümün pəncəsindən qurtarmışdı, onlara ikinci həyat bəxş etmişdi. Bakıda, Gəncədə...şəfa tapmayanlar onun sayəsində sağlamlıqlarına qovuşmuşdular. Nə qədər ki, Səyyar həkim var idi, heç kim Bakıya, Gəncəyə, İrana... getmək barədə düşünmürdü, hamı onun biliyinə, bacarığına, şəfalı əllərinə güvənirdi.

### *Fikrimizin təsdiqi kimi*

təkcə bu faktı yazmaq da yetərlidir: "...Slavyanka kəndindən bir kişi uzun müddət imiş ki, Bakıda müalicə alırmış. Ancaq müalicənin xeyiri olmadığından-




vəziyyəti pisləşdiyi üçün evinə aparmağı məsləhət görürlər. Sonra onu Səyyar həkimin üstünə aparırlar ki, ağrılarını götürmək üçün ona yardım etsin. Səyyar həkim xəstəni müayinə edir, olunan müalicələrin reseptləri ilə tanış olur, xəstənin şikayətlərini dinlədikdən sonra onu yenidən özü müalicə eləyir.Çox keçmir ki, xəstənin vəziyyəti yaxşılığa doğru dəyişir. Xəstə artıq ayağa qalxıb yeriməyə başlayır".

Kitabda bu kimi faktlar yetərincədir.

Səyyar həkim saf, təmiz ürəkli, kövrək qəlbli bir insan idi. Hamıya kömək etməyə çalışırdı. Öz peşəsini çox sevirdi. Bu peşəni sevə-sevə həkimlik adını göylərə ucaltmışdı. Bəli, o müqəddəs, xeyirxah bir insan idi. Fəxrlə deyə bilərəm ki, bu gün yüzlərlə insanın müqəddəslik ünvanlarından biri Səyyar Məhəmməd oğlu Əsgərovdu. Tanrı Azərbaycanımıza onun kimi bir ziyalı-həkim bəxş eləmişdi. Elə bir ziyalı-həkim ki, işığı hər tərəfə düşürdü. Onun işığında qaranlıqlar aydınlaşırdı. Bəli, o, bir Günəş idi.İşığı hər yana düşürdü.Tanrı bu işığı bizə çox gördü və 2017-ci ilin aprelin 12-də bu Günəş qürub etdi.

Zəminə xanım Əsgərova "Şəfalı ömrün işığı" kitabında ürək ağrılarını qələmə alıb və bu kitabı ilə Səyyar həkimə, eləcə də qardaşı Tofiqə möhtəşəm bir abidə ucalda bilib, necə deyərlər ən incə sözlərdən bir çələng toxuyub. Bu söz çələngi heç zaman solmayacaq, öz təravətini həmişəlik saxlayacaq və bu xatirələr toplusu nəsillərdən nəsillərə ötürüləcəkdir. Zəminə xanımın bu kitabını oxuduqca hiss edirdim ki, o, bir işıq daşıyıcısıdır. Bu işıq kitabın hər səhifəsində görünürdü. Həm də hiss olunurdu ki, Azərbaycan Elmlər Akademiyasının A. Bakıxanov adına Tarix institutunun "Azərbaycan diasporu" şöbəsində çalışan bu ziyalı qadın jurnalistika sahəsində də öz qələmi olan bir söz adamıdı, bir Azərbaycan yazarıdı, həm də istedadlı şairədi.

"Mənalı ömrün işığı" kitabında nəyi qələmə alıbsa, hansı düşüncəni oxucusuyla paylaşıbsa, orda Zəminə xanımın özü olub. Və bu dəyərli kitab Səyyar Əsgərov şəxsiyyətini, böyüklüyünü, fədakar həkim kimi fəaliyyətini gözlərimiz qarşısında canlandırır. Kitabda yer alan fikirlər maraqla oxunur. Onlardan bir neçəsini diqqətinizə çatdırmaqla fikrimizi isbatlamış oluruq:

**Sabir Tağıyev (akademik):** "Səyyar həkim üçün kəndinin, rayonunun, Respublikamızın tarixinin və abidələrinin hər şeydən əziz olduğunun şahidi olmuşdum".

**Şahin Yaquboğlu (müəllim):** "Səyyar həkim kimi insanlar bu dünyaya öz layiqli yerinə gəlirlər. Həyatdan gedəndə isə onların yeri görünür, böyük boşluq hiss olunur".

**İstəkli oxucular! Bu kitabı oxuyun və əsl türk kişisi obrazı ilə, əsl ziyalı və şəxsiyyət ilə, əsl fədakar həkimlə daha yaxından tanış olun. Səyyar həkimin xarakterik cizgiləri, mərdliyi, bütövlüyü, xeyirxahlığı, milli sevgisi və digər müsbət xüsusiyyətləri bu kitabda güzgü kimi əks olunub. Məhz ona görə də bu kitabı oxumaq lazımdır. "Mənalı ömrün işığı" həm də əbədiyaşar xatirələr, fikirlər toplusudur. Belə bir kitabı yazdığına və oxuculara çatdırdığına görə Zəminə xanıma təşəkkür edirik. Təşəkkür edirik ki, Səyyar Əsgərov kimi bir Azərbaycan həkimilə bizləri daha yaxından tanış elədi. Bu gün Səyyar Əsgərov kimi həkim-ziyalılara, vətənsevərlərə, şəxsiyyətlərə... daha çox ehtiyacımız var. Səyyar həkimə ulu Tanrıdan rəhmət, böyük bir şəxsiyyətin obrazını yaratdığına görə Zəminə xanıma sayğılarımızı bildiririk.**

**Müzahim İsmayılzadə,**
**Vaqif İsaqoğlu**